


# Qarabağ Azərbaycandır!

İLHAM ƏLİYEV

# Prezident seçkiləri

# 07.02.2024

# Mündəricat


- Qısa tarixi məlumat ........ 2-3
- Bölgədə münaqişə zemininin yaradılması ........ 4
- Ermənistanın Azərbaycana təcavüzü ........ 5-7
- Ermənilərin törətdikləri qətliamlar və Xocalı soyqırımı ........ 8-11
- Heydər Əliyev fenomeni ........ 12-17
- İşğal beynəlxalq sənədlərdə ........ 18-23
- Danışıqlar prosesi ........ 24-25
- Ermənistanın təxribatları və pozuculuq fəaliyyəti ........ 26-27
- 44 günlük Vətən müharibəsi ........ 28-39
- Sülh müqaviləsinin hazırlıq mərhələsi ........ 40-41
- Lokal antiterror tədbirləri ........ 42-45
- Viran edilmiş yurdun bərpası ........ 46-53
- Gələcəyə baxış ........ 54-55

## Qısa tarixi məlumat

Qarabağ əyaləti müxtəlif dövrlərdə Azərbaycan dövlətlərinin tərkibində olmuş, 1748-ci ildə müstəqil xanlığa çevrilmiş, 1822-ci ildən sonra isə çar Rusiyasına ilhaq edilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Qarabağ general-qubernatorluğu yaradılmış və Şuşa şəhəri onun inzibati mərkəzi olmuşdur. Tarixən Qarabağ vahid əyalət olmuş, dağlıq və aran ərazilər bölgüsü olmamışdır.






КАРТА
ЕЛИСАВЕТПОЛЬСКОЙ ГУБЕРНІИ
СЪ ПОКАЗАНІЕМЪ СЕЛЬСКИХЪ ОБЩЕСТВЪ
И РАСПРЕДѢЛЕНІЯ НАСЕЛЕНІЯ ПО ВѢРОИСПОВѢДАНІЮ.
ТИФЛИССКАЯ ГУБ.
ЭРИВАНСКАЯ ГУБЕРНІЯ
ПЕРСІЯ

# Bölgədə münaqişə zəmininin yaradılması


Proclamation
de l'Indépendance de l'Azerbaidjan

Le 28 mai 1918 à Tiflis le Conseil National de l'Azerbaidjan a publié le décret suivant sur l'indépendance de l'Azerbaidjan

Dans le cours de la grande révolution russe a été établie en Russie une organisation politique qui a amené la ségrégation de diverses parties de l'organisme de l'Etat et l'abandon de la Transcaucasie par les troupes russes.

Laissés à leurs propres forces, les peuples de la Transcaucasie ont pris en main leur propre sort et ont fondé la République Démocratique Fédérative de la Transcaucasie. Toutefois dans le cours des événements politiques, le peuple géorgien a cru préférable de se séparer de la République Fédérative de la Transcaucasie et de former une République Démocratique Géorgienne particulière.

La situation politique actuelle de l'Azerbaidjan, liée avec la liquidation de la guerre entre la Russie et l'Empire Ottoman et aussi l'anarchie inouïe dans l'intérieur du pays forcent l'Azerbaidjan, consistant dans la Transcaucasie orientale et méridionale, à reconnaître la nécessité d'organiser un Etat à lui, pour faire sortir les peuples de l'Azerbaidjan de la pénible situation intérieure et extérieure où ils se trouvent.

Considérant cela, le Conseil National de l'Azerbaidjan élu par le suffrage populaire, proclame au nom du peuple ce qui suit:

1 A partir d'aujourd'hui, les peuples de l'Azerbaidjan jouissent des droits souverains & l'Azerbaidjan, composé de la Transcaucasie orientale & méridionale forme un état indépendant, jouissant de tous les droits d'un Etat.

2 La forme de l'organisation de l'Azerbaidjan indépendant est la République Démocratique.

3 La République Démocratique de l'Azerbaidjan s'efforcera d'établir des rapports de bon voisinage avec tous les Etats & particulièrement avec les peuples & Etats limitrophes.

4 La République Démocratique de l'Azerbaidjan garantit sur son territoire les droits civils & politiques à tous les citoyens, sans distinction de nationalité, de religion, de position sociale et de sexe.

5 La République Démocratique de l'Azerbaidjan accorde à toutes les nationalités peuplant son territoire toutes les facilités pour se développer librement.

6 Jusqu'à la convocation de l'Assemblée Constituante, à la tête de l'administration de tout l'Azerbaidjan se trouve le Conseil National, élu au suffrage universel et le Gouvernement Provisoire, responsable devant l'Assemblée Nationale.

XX əsrin əvvəllərində, I Dünya müharibəsinin nəticələrinə əsasən gedən proseslərlə əlaqədar olaraq Cənubi Qafqaz dövlətləri öz müstəqilliyini elan etdilər. Azərbaycan ermənilərin siyasi mərkəz yaratması üçün İrəvanı Ermənistana güzəştə getdi və bunun sayəsində 9 min kv.km ərazidə Ermənistan öz respublikasını yaratdı.

Elə ilk gündən digər qonşu ərazilərə iddiası olan ermənilər 1920-ci il aprelin 28-də Azərbaycanda sovet hökuməti qurulduqdan sonra bolşeviklərin himayəsi ilə yeni ərazilər əldə etməyə nail oldular. Azərbaycanın Zəngəzur əyaləti Ermənistana verildi, həm də Qarabağın süni bölgüsü aparıldı. Rusiya kommunist partiyasının Qafqaz Bürosunun 1921-ci il iyulun 5-də keçirilən iclasında Qarabağın dağlıq hissəsinə muxtar vilayət statusunun verilməsi ilə bağlı qərar qəbul edildi. Qafqaz Bürosunun qərarı Qarabağı süni şəkildə bölməklə və ərazi statusu verməklə gələcək münaqişə üçün zəmin yaratdı.

Sovet İttifaqı dövründə Ermənistanın dəfələrlə Azərbaycanın Qarabağ bölgəsinə ərazi iddiaları olmuşdur. Mixail Qorbaçovun hakimiyyətə gəlişindən sonra isə yenidən bu iddialara cəhd edilmiş, cəmiyyət azərbaycanlılara qarşı nifrətə səfərbər olunmuş və 1987-ci ilin sonlarında siyasi aksiyalara və zorakılıq aktlarına start verilmişdir.

# Ermənistanın Azərbaycana təcavüzü

1987-ci ildə Qarabağın Ermənistana birləşdirilməsi şüarları ilə İrəvanda keçirilən böyük nümayişlər qısa müddətdən sonra Ermənistanda yaşayan azərbaycanlıların öz doğma yurdlarından qovulması, etnik təmizləmə ilə nəticələndi. 1987-ci ilin noyabrından başlayaraq aqressiv zorakılığa məruz qalan və ölüm təhdidi ilə üzləşən yüz minlərlə azərbaycanlı, əli yalın qarlı dağları aşıb Azərbaycana pənah gətirməli oldu.

Həmin dövrdə 250 mindən çox azərbaycanlı tarixi torpaqlarını tərk etməyə məcbur edildi. Onlardan 242 nəfəri vəhşicəsinə qətlə yetirilmiş, 1154 nəfəri isə yaralanmışdı. Lakin bu cinayətlərlə bağlı Ermənistan heç bir hüquqi təhqiqat aparmamış, cinayətkarları müəyyən edib cəzalandırmamışdır.

Azərbaycanlılar son 40 ildə ikinci dəfə Ermənistanda yaşadıqları tarixi torpaqlarından didərgin düşdülər, 1947-53-cü illərdə Ermənistandan deportasiyadan sonra 1987-88-ci illərdə etnik təmizləməyə məruz qaldılar.

Baş vermiş bu hadisələr Ermənistan və Azərbaycan arasında illərlə davam edəcək qanlı Dağlıq Qarabağ münaqişənin başlanğıcı idi. Azərbaycana qarşı həm Ermənistandan, həm də Azərbaycan ərazilərində, xüsusilə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) ərazisində Ermənistandan gələn millətçi emissarların təhriki ilə genişmiqyaslı təxribatlar törədilirdi.

1988-ci il fevralın 20-də Azərbaycanın tərkibində olan Dağlıq Qarabağ Muxtar Vilayətinin Xalq Deputatları Sovetinin erməniəsilli deputatları vilayətin Ermənistan SSR-ə birləşdirilməsi qərarına səs verdilər. Fevralın 22-də bu qərara etiraz edən dinc azərbaycanlıların nümayişinə Əsgəran qəsəbəsi yaxınlığında ermənilərin atəş açaraq iki azərbaycanlı gənci qətlə yetirməsi münaqişənin silahlı mərhələyə keçməsindən xəbər verdi.

Hadisələri daha da gərginləşdirmək üçün çox keçmədi ki, Sumqayıt təxribatı törədildi. Onun günahkarlarının həbs edilib mühakimə olunması, hadisələrdə Ermənistan emissarlarının rolunun müəyyənləşdirilməsi Ermənistanın Azərbaycana qarşı açıq müharibəsinin gizlin təfərrüatlarını ortaya çıxardı.

Hadisələrin sonrakı gedişatı göstərdi ki, Sovet hakimiyyəti alovlanmaqda olan münaqişənin vaxtında qarşısını ala bilmədi. Atılan addımlar qarşıdurmanın daha da dərinləşməsinə səbəb oldu.

Azərbaycanla sərhəddə, həm də Azərbaycan ərazilərində, o cümlədən DQMV-də Ermənistanın törətdiyi terror aktları, silahlı hücumlar, dövlət qurumlarının fəaliyyətini əngəlləmək cəhdləri ilə əlaqədar olaraq SSRİ Ali Sovetinin Rəyasət Heyətinin qərarı ilə Xüsusi İdarəetmə Komitəsi yaradıldı, lakin Komitənin 1989-cu il ərzində fəaliyyəti separatizmə daha da rəvac verdi. Bu addımın özü artıq həmin ərazini mərkəzi Azərbaycan hakimiyyətinin nəzarətindən çıxarmağa və erməni ideoloqlarının istəklərinin daha da genişlənməsinə şərait yaratdı.

1991-ci ildə SSRİ-nin süqutu ilə regionda yeni geosiyasi reallıq yarandı və yeni müstəqillik qazanmış respublikaların SSRİ tərkibində malik olduğu inzibati sərhədləri "uti possidetis juris" prinsipinə uyğun olaraq beynəlxalq hüquq tərəfindən qorunan beynəlxalq sərhədlərə çevrildi. Beynəlxalq aləm Azərbaycan Respublikasının SSRİ-nin tərkibində malik olduğu ərazi çərçivəsində müstəqilliyini tanıdı.

Ermənistan isə beynəlxalq hüquq normalarını pozaraq sovet hərbi bazalarından talanlarla ələ keçirdiyi və xarici mənbələrdən aldığı silahlar əsasında yaratdığı hərbi birləşmələrdən və xarici könüllülərdən ibarət terrorçu qruplarla 1991-ci ildən başlayaraq Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərini pozdu, Azərbaycan ərazisində elan olunmamış təcavüz müharibəsinə və işğalçılığa başladı, qanlı müharibə cinayətləri, o cümlədən soyqırım aktı törətdi.

XX əsrin əvvəllərində beynəlxalq hüquqda təcavüz müharibəsinin, müharibənin milli siyasətin vasitəsi kimi qadağan edilməsi, həmçinin BMT Xartiyasının 2-ci maddəsinin 4-cü bəndinin dövlətin siyasi müstəqilliyinə və ərazi bütövlüyünə qarşı gücdən istifadənin tamamilə qadağan etməsinə zidd olaraq Ermənistan Azərbaycana qarşı silahlı təcavüz həyata keçirdi.

Beynəlxalq birliyin bu təcavüzə etinasız münasibətindən və hətta bəzi hallarda dəstəyindən istifadə edən Ermənistan Azərbaycana qarşı birbaşa və dolayı təcavüz aktlarını daha da genişləndirdi.

Ermənistan təcavüzkar kimi tanınmasının qarşısını almaq və münaqişə tərəfi olduğunu gizlətmək üçün ilhaq ideyasını arxa plana keçirib keçmiş DQMV-də "müstəqil" qondarma rejimin yaradılmasına üstünlük verdi.

Nəticədə, Qarabağda yaşayan Azərbaycan vətəndaşları olan ermənilər Ermənistanın ərazi iddialarının qurbanına çevrildilər. Azərbaycanın milli ərazisində qeyri-qanuni qondarma rejimin yaradılması yenicə elan edilmiş suveren dövlətçiliyə qarşı qəsd idi və 1991-ci il noyabrın 26-da Azərbaycan Respublikasının Ali Soveti DQMV-nin ləğvi ilə bağlı qərar qəbul etdi.





# Ermənilərin törətdikləri qətliamlar və Xocalı soyqırımı

Ermənistanın hərbi birləşmələri və erməni silahlı dəstələri hələ ordusu yaradılmamış Azərbaycanın ərazilərində dinc əhaliyə qarşı qırğınlar törədir və bu ərazilərdən azərbaycanlıları qovurdular. Yerli əhalidən ibarət azsaylı könüllü müdafiə qüvvələri bu qırğınların qarşısını ala bilmirdi.

Münaqişənin ilkin mərhələsində Ermənistan silahlı qüvvələri azərbaycanlı mülki əhalini legitim hədəfə çevirdi. 1990-cı ildən başlayaraq bu proseslər daha da genişlənməyə başladı. Artıq 1991-ci ilin sonlarından başlayaraq azərbaycanlıların yaşadıqları 30-dan çox kəndə hücumlar sistematik şəkildə mülki əhalinin kütləvi surətdə qətlə yetirilməsi ilə müşayiət edildi.

Qazax rayonunun Bağanis Ayrım, keçmiş DQMV-nin azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı dinc əhali planlı şəkildə xüsusi amansızlıqla qətlə yetirilmişdir.

Təkcə onu qeyd etmək kifayətdir ki, erməni hərbi birləşmələrinin 1991-ci il dekabrın 23-də səhər saat 07:00 radələrində Meşəli kəndinə hücumu nəticəsində 8-i qadın, 3-ü uşaq olmaqla, 28 nəfər qətlə yetirilmiş, 14 nəfər yaralanmışdır. Kənd yandırılmışdır. 1992-ci il fevralın 15-də yenə də səhər tezdən erməni silahlıları Qaradağlı kəndinə hücuma keçmişdilər. Kəndin 80 nəfərdən çox dinc sakini vəhşicəsinə qətlə yetirilmiş, 50 nəfər əsir götürülmüş, 42 ailə başçısını itirmiş, 140 uşaq yetim qalmışdır. Bütün bunlar onu göstərir ki, Ermənistan həyata keçirdiyi işğalçılıq siyasətində mümkün qədər çox Azərbaycan ərazilərini azərbaycanlılarsız zəbt etmək məqsədi güdürdü. Ermənistan bu məqsədinə nail olmaq üçün həm azərbaycanlıların kütləvi məhv edilməsini (soyqırımı), həm də qovulmasını (etnik təmizləmə) həyata keçirirdi.

Azərbaycanlı dinc əhaliyə qarşı törədilmiş cinayətlər miqyasına, amansızlığına və azərbaycanlı etnik qrupun xüsusi niyyətlə *(dolus specialis)* məhv edilməsini hədəflədiyinə görə soyqırımı hadisəsi idi.

Xocalı soyqırımında bilavasitə iştirakçı olmuş Ermənistanın sabiq prezidenti Serj Sarkisyan ingilis jurnalisti Tomas de Vaala müsahibəsində niyyətlərini açıq şəkildə etiraf etmişdir: "Xocalıya qədər azərbaycanlılar bizimlə, sadəcə, zarafat etdiklərini fikirləşirdilər. Azərbaycanlılar elə fikirləşirdilər ki, ermənilər dinc əhaliyə əl qaldıra bilməz. Biz bu stereotipi qıra bildik. Budur baş verənlər".

Qarabağda azərbaycanlılara qarşı törədilmiş soyqırımı cinayəti Ermənistanın münaqişə zamanı törətdiyi cinayətlərin ən ağırıdır və ədalət məhkəməsini gözləyir.

Törədilmiş soyqırımı cinayətindən sonra Ermənistan silahlı birləşmələri fəaliyyətlərini daha da genişləndirdilər. Hətta beynəlxalq vasitəçilərin danışıq təşəbbüslərinə qoşulan Ermənistan bundan yeni ərazilərin işğalı üçün fürsət kimi istifadə edirdi. 1992-ci ilin mayında Tehranda danışıqlar bitməmiş ayın 8-də Azərbaycanın mədəniyyət beşiyi olan Şuşa şəhəri, 17-də isə Laçın rayonu işğal edildi. Minsk qrupu çərçivəsində danışıqlarda irəliləyiş müşahidə edildiyi zaman Ermənistan Kəlbəcər rayonunu işğal etdi.

**SERJ SARKİSYAN:**

**"XOCALIYA QƏDƏR AZƏRBAYCANLILAR BİZİMLƏ, SADƏCƏ, ZARAFAT ETDİKLƏRİNİ FİKİRLƏŞİRDİLƏR. AZƏRBAYCANLILAR ELƏ FİKİRLƏŞİRDİLƏR Kİ, ERMƏNİLƏR DİNC ƏHALİYƏ ƏL QALDIRA BİLMƏZ. BİZ BU STEREOTİPİ QIRA BİLDİK. BUDUR BAŞ VERƏNLƏR".**

Kütləvi qətliamlara beynəlxalq ictimaiyyətin etinasızlığı və Ermənistanın cəzasızlığı törədilən bu cinayətlərin daha da amansız xarakter almasına səbəb oldu. Xocalıda dinc əhaliyə qarşı törədilmiş cinayətlər öz miqyasına, amansızlığına və məkrliliyinə görə fərqlənirdi.

Xocalı şəhəri coğrafi mövqeyinə (Xankəndinin 10 kilometrliyində, Ağdam-Şuşa və Əsgəran-Xankəndi yollarının arasında), Qarabağın yeganə aeroportuna malik olmasına və əhalinin sayına görə erməni planlarında xüsusi yer almışdı.

Bir ay sürən mühasirədən sonra, 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Xocalıya hücum edən Ermənistan hərbi birləşmələri şəhəri mühasirəyə alıb mülki əhalini, o cümlədən uşaqları, qadınları, qocaları kütləvi şəkildə qətlə yetirdilər. Şəhərdən qaçıb Ağdama getmək istəyənlər isə yollarda pusqu quran erməni silahlıları tərəfindən güllələbaran edildilər. 613 nəfər dinc azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirildi, onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i qoca idi. 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi. 487 dinc sakin ağır yaralandı, 1275 nəfər girov götürüldü. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi indiyədək naməlumdur.

> **613 NƏFƏR** VƏHŞİCƏSİNƏ **QƏTLƏ YETİRİLDİ**,
> ONLARDAN **63-Ü UŞAQ, 106-SI QADIN, 70-İ QOCA İDİ.**
> **8 AİLƏ** TAMAMİLƏ **MƏHV EDİLDİ**, **25 UŞAQ** HƏR İKİ VALİDEYNİNİ,
> **130 UŞAQ** VALİDEYNLƏRİNDƏN BİRİNİ İTİRDİ.
> **487 DİNC SAKİN AĞIR YARALANDI, 1275 NƏFƏR GİROV GÖTÜRÜLDÜ.**
> GİROV GÖTÜRÜLƏNLƏRDƏN **150 NƏFƏRİN**, O CÜMLƏDƏN **68 QADININ VƏ 26 UŞAĞIN** TALEYİ İNDİYƏDƏK NAMƏLUMDUR.



# Heydər Əliyev fenomeni

Heydər Əliyev keçən əsrin 70-80-ci illərində Azərbaycan dövlət təhlükəsizlik xidmətində məsul vəzifələrdə işlədiyi, sonralar isə respublika rəhbəri olduğu zamanlarda ermənilərin ərazi iddialarına, təxribatlarına, pozuculuq əməllərinə qarşı qətiyyət göstərmişdir. 1960-cı illərdə Azərbaycan ərazisinin bir hissəsinin Ermənistana verilməsi barədə Moskvanın qərarının olmasına baxmayaraq, o, rəhbər olduğu dövrdə bu qərarın icrasına imkan verməmişdir. Hətta Moskvada Sovet İttifaqının rəhbərliyində çalışdığı dövrdə də Siyasi Büronun üzvü kimi baş verən hadisələrə öz qəti mövqeyini nümayiş etdirmiş, milli maraqları qorumuşdur. Heydər Əliyevin mərkəzi hakimiyyətdən uzaqlaşdırılması Ermənistan və erməni lobbisi üçün əsl fürsət yaratmışdır və Qarabağ münaqişəsi bundan dərhal sonra alovlandırmışdır.

Ermənistan Şuşanın işğalından sonra yaranmış vəziyyətdən istifadə edərək Azərbaycanın qədim Naxçıvan torpağının da işğalını planlaşdırırdı. Bu məqsədlə 1992-ci ilin may ayında Naxçıvanla sərhəddə döyüşlərin intensivliyi artmış və ora əlavə qüvvələr toplanılmışdı. Lakin həmin dövrdə Naxçıvan Ali Məclisinə sədrlik edən Heydər Əliyevin Naxçıvanın müdafiəsi istiqamətində atdığı qətiyyətli addımlar Ermənistanın səylərini uğursuzluğa düçar etdi.

Lakin Azərbaycanda siyasi hakimiyyətin zəifliyi və səriştəsizliyi, daxili hərc-mərclik, iqtisadi böhranın dərinləşməsi təcavüzkar qüvvələrin suveren Azərbaycan ərazilərindən çıxarılmasına imkan vermədi. Belə çətin bir vaxtda, xalqın təkidi ilə mövcud hakimiyyət Heydər Əliyevin Naxçıvandan Bakıya gəlməsinə və yaranmış vəziyyətə uyğun addımların atılmasına razı oldu. Heydər Əliyev xalqın səsinə səs verdi, ömrünün qalan hissəsini də öz xalqına həsr etdi. O, bütün gücləri səfərbər edib Azərbaycan dövlətçiliyinin xilası, ordu quruculuğu, sabitliyin bərpası və Ermənistanın hərbi təcavüzünün aradan qaldırılması istiqamətində ciddi addımların atılması üzrə gərgin fəaliyyətə başladı.



Lakin miras qalmış vəziyyətin ağırlığı və cəbhədə mövcud olan vəziyyət Ermənistana Azərbaycan ərazilərinin işğalını davam etdirməyə imkan verdi və artıq keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ətrafında olan Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonları, Ağdam şəhəri və rayonun bir hissəsi işğal edildi.

Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış suveren ərazilərinin 20%-i, o cümlədən Qazax rayonunun 7, Naxçıvanın 1 kəndi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi, 750 mindən çox dinc sakin öz doğma torpaqlarından qovuldu, etnik təmizləməyə məruz qaldı, 20 min nəfərdən çox azərbaycanlı döyüşlərdə şəhid oldu, 3890 azərbaycanlı itkin düşdü, onların sonrakı taleyi hələ də bəlli deyil.

“

**ERMƏNİSTANIN HƏRBİ TƏCAVÜZÜ NƏTİCƏSİNDƏ** AZƏRBAYCANIN BEYNƏLXALQ SƏVİYYƏDƏ TANINMIŞ **SUVEREN ƏRAZİLƏRİNİN 20%-İ İŞĞAL EDİLDİ.**
**750 MİNDƏN ÇOX DİNC SAKİN** ÖZ DOĞMA TORPAQLARINDAN QOVULDU, ETNİK TƏMİZLƏMƏYƏ MƏRUZ QALDI,
**20 MİN NƏFƏRDƏN ÇOX AZƏRBAYCANLI** DÖYÜŞLƏRDƏ ŞƏHİD OLDU, **3890 AZƏRBAYCANLI İTKİN DÜŞDÜ.**

”





1993-cü il noyabrın 2-də xalqa müraciət edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Vətəni erməni təcavüzündən qorumaq üçün xalqı birliyə və səfərbərliyə çağırdı. Yenidən təşkil edilən ordu hissələri 1993-cü ilin sonlarında əks-hücum əməliyyatına başladı və qısa müddətdə onlarla yaşayış məntəqəsini, o cümlədən Horadiz qəsəbəsini işğaldan azad etdi. Azərbaycan Ordusu Heydər Əliyevin rəhbərliyi ilə öz suveren ərazilərini işğaldan azad etmək iqtidarında olduğunu bütün dünyaya nümayiş etdirdi və müharibənin gedişatını dəyişdi.

Heydər Əliyev münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini özündə ehtiva edən siyasətini dünyaya bəyan etdi. 1994-cü il mayın 8-də Qırğızıstanın paytaxtı Bişkek şəhərində atəşkəs razılaşması imzalandı. Bu anlaşma Azərbaycanın uzunmüddətli inkişafı və mövqeyinin güclənməsini, gələcək qələbənin möhkəm əsaslarını təşkil edəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ömrünün sonunadək münaqişənin həlli üzrə yorulmaz fəaliyyət həyata keçirdi. Müxtəlif beynəlxalq təşkilatlarda - Birləşmiş Millətlər Təşkilatı, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), İslam Konfransı Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqı, Avropa Şurası, Müstəqil Dövlətlər Birliyi (MDB) və digər təşkilatlarda həm Azərbaycanın ərazisinin 20%-nin Ermənistanın işğalı altında olması, həm də törədilmiş qırğınlar, Azərbaycanın ərazi bütövlüyünün beynəlxalq hüququn normalarına əsasən bərpa olunması məsələləri qaldırılmış və onların hamısının imkanlarından səmərəli istifadə etməyə çalışılmışdır. Bu səviyyələrdə iştirak, həmçinin Azərbaycan həqiqətləri ətrafında yaradılmış informasiya blokadasının yarılmasına da xidmət etmişdir.



# İşğal beynəlxalq sənədlərdə

XX əsrin sonlarında Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, azərbaycanlılara qarşı törədilmiş soyqırım cinayəti beynəlxalq hüququn fundamental prinsip və normalarının kobud şəkildə pozulması idi. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnamədə (822, 853, 874, 884) Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsi, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin pozulmasının və güc tətbiq etməklə ərazilərin zəbt edilməsinin yolverilməz olduğunu vurğulamaqla, işğalçı qüvvələrin suveren Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edildi.

Lakin bu qətnamələrin yaratdığı öhdəliklər nə konkret fəaliyyətdə öz ifadəsini tapdı, nə də kollektiv təhlükəsizlik mexanizminin qanuni gücdən istifadəsinə gətirib çıxardı. Təhlükəsizlik Şurası nə qətnamələr qəbul edildikdən dərhal sonra, nə də sonrakı 27 illik müddətdə Ermənistanın hərbi təcavüzünün qarşısını almaq və onun beynəlxalq məsuliyyətə cəlb edilməsi üçün heç bir tədbir görmədi.

BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi və icrasız qalmış qətnamələrindən sonra münaqişənin həlli barədə məsələlər ardıcıl olaraq 1994-cü və 1996-cı illərdə ATƏT-in Zirvə toplantılarında qaldırılmış və Azərbaycanın ərazi bütövlüyünə üzv dövlətlərin dəstəyi ifadə edilmiş, müvafiq qərarların qəbul edilməsinə nail olunmuşdur.

1994-cü ildə Budapeşt Sammitində qəbul olunmuş qərarda ATƏT bu münaqişənin tezliklə həll olunmasının, sülh yolu ilə aradan qaldırılmasının zəruriliyini bir daha bəyan etmiş, münaqişəyə son qoymaq, məsələni sülh yolu ilə həll etmək üçün danışıqlar prosesinin, Minsk qrupunun işinin daha da intensivləşdirilməsi qeyd olunmuşdur.


UNITED NATIONS
Security Council
S
Distr. GENERAL
S/RES/822 (1993)
30 April 1993
Security Council
S
Distr. GENERAL
S/RES/853 (1993)
29 July 1993
UNITED NATIONS
Security Council
S
Distr. GENERAL
S/RES/874 (1993)
14 October 1993
UNITED NATIONS
Security Council
S
Distr. GENERAL
S/RES/884 (1993)
12 November 1993




1996-cı ildə ATƏT-in Lissabon sammitində isə Prezident Heydər Əliyevin milli maraqların qorunması üzrə qətiyyətli mövqeyi sayəsində üzün sürən və çoxsaylı gərgin danışıqlardan sonra münaqişənin həlli üçün Azərbaycanın irəli sürdüyü prinsiplərin Avropada təhlükəsizliyin qorunmasına mandatı olan beynəlxalq təşkilatın yekun sənədinə ilk dəfə daxil edilməsinə nail olundu.

Münaqişənin uzun illər davam etməsi, sülh danışıqlarının nəticəsiz qalması, regionda yaranmış status-kvonun beynəlxalq sülh və təhlükəsizliyə təhdid olması və Təhlükəsizlik Şurasının öz səlahiyyətini yerinə yetirməməsi münaqişə ilə bağlı məsələnin BMT Baş Assambleyasına çıxarılmasını zəruri etdi. Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətlə bağlı 2004-cü ildə etdiyi müraciət əsasında 2006-cı il sentyabrın 15-də Baş Assambleyanın Qətnaməsi qəbul olundu. Qətnamədə bu ərazilərdə törədilən yanğınların ekoloji ziyanından narahatçılıq bildirilmiş və yanğınların söndürülməsi üçün təxirə salınmadan ekoloji əməliyyatların keçirilməsinin vacibliyi vurğulanmışdı.

2008-ci il martın 14-də Baş Assambleyada növbəti qətnamə qəbul edildi. Münaqişənin siyasi və hüquqi məqamlarına toxunan bu qətnamədə Azərbaycanın suverenliyi və ərazi bütövlüyü bir daha vurğulanaraq münaqişənin həlli prinsipləri yenidən təsdiq edildi. Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılması, işğal olunmuş ərazilərdən qovulmuş insanların qayıdışı, işğal nəticəsində yaranmış qeyri-qanuni vəziyyətin tanınmasının qeyri-mümkünlüyü xüsusi qeyd edildi.



Münaqişə, eyni zamanda, regional təşkilatlar çərçivəsində geniş müzakirə predemetinə çevrildi. Bu müzakirələr münaqişənin həllinin hüquqi baza prinsipləri ətrafında ümumi konsensusun formalaşmasına və Ermənistanın qeyri-qanuni əməlinin qınanılması üzrə sənədlərin qəbuluna gətirib çıxardı.

Azərbaycan Prezidenti Heydər Əliyevin və sonralar Prezident İlham Əliyevin beynəlxalq arenada apardıqları ardıcıl və məqsədyönlü fəaliyyət bütün beynəlxalq təşkilatlarda münaqişənin həllinin hüquqi əsasları ilə bağlı ümumi konsensus formalaşdırdı.

Azərbaycanın fəal və etibarlı üzvünə çevrildiyi Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının 2012-ci ildə Tehranda keçirilən 16-cı Zirvə görüşündə, 2016-cı ildə Venesuelada keçirilən 17-ci Zirvə görüşündə, eləcə də 2019-cu ildə Bakıda keçirilən 18-ci Zirvə görüşündə münaqişənin Azərbaycanın ərazi bütövlüyü və tanınmış beynəlxalq sərhədləri daxilində həllinin zəruriliyi ifadə edilmişdir.

İslam Əməkdaşlıq Təşkilatı münaqişənin əsl mahiyyətini və Ermənistanın hərbi gücdən istifadəsini fakt və hadisələrin beynəlxalq hüquq nöqteyi-nəzərindən dəyərləndirməklə ifadə etmişdi. Münaqişə ilə bağlı qəbul edilən qətnamələr Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü sərt şəkildə qınayır, işğal edilmiş ərazilərdən işğalçı qoşunların dərhal çıxarılmasını tələb edir, Ermənistanı Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyə çağırır və münaqişənin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında həll edilməsinin zərurliyini qeyd edirdi.





BMT-nin Baş katibi və Təhlükəsizlik Şurasının sədri Ermənistanın təcavüzünü qınayan qətnamələrin qəbul edilməsinə səs verməyə və Təhlükəsizlik Şurasını Azərbaycana qarşı təcavüz aktının mövcudluğunu tanımağa dəvət etmişdir.

Təşkilat həmçinin beynəlxalq humanitar hüququn normalarının ciddi şəkildə pozulduğuna diqqət çəkmiş və Azərbaycanın işğal edilmiş ərazilərində azərbaycanlı mülki əhaliyə qarşı törədilmiş zorakılıq aktlarını bəşəriyyətə qarşı cinayətlər hesab etmişdir. Təşkilata üzv dövlətlər Azərbaycana qarşı törədilən bütün qeyri-qanuni fəaliyyətlərə görə Ermənistanın məsuliyyət daşıdığını bildirmişdir.

Bütün təşkilatlar birmənalı olaraq işğalçı qoşunların çıxarılmasını və güc vasitəsilə yaradılan vəziyyətin qeyri-qanuniliyini vurğulamışdır. Bunlar Ermənistanın işğalçı olmasının, hərbi təcavüz nəticəsində suveren Azərbaycan ərazilərində cinayətlər törətməsinin, yaratdığı qondarma qurumun qeyri-qanuniliyinin və heç bir halda digər dövlətlər tərəfindən tanınmadığının ifadəsi olmuşdur.

# Danışıqlar prosesi

Azərbaycan münaqişənin sülh, beynəlxalq hüququn prinsip və normaları əsasında həll edilməsinə inanırdı və bu müstəvidə ATƏT-in Minsk qrupunun sülh danışıqları prosesində iştirak edirdi. Azərbaycan haqlı olaraq beynəlxalq birliyi XX əsrin sonlarında Ermənistanın apardığı təcavüz müharibəsinə müvafiq mövqe sərgiləməyə dəvət edirdi və Minsk qrupunu ATƏT-in prinsip və öhdəlikləri əsasında münaqişənin həllinə nail olmasına çağırırdı.

Lakin ATƏT-in Minsk qrupu vasitəsilə həyata keçirdiyi sülh missiyası illər uzunu nəticəsiz qalırdı. Hətta 1993-cü il iyulun 23-də Ağdam Ermənistan tərəfindən işğal edildikdən sonra Minsk qrupunun sədri Mario Rafaelli vasitəçilik missiyasının uğursuzluğunu etiraf edərək bildirmişdi ki, Təhlükəsizlik Şurasının 822 nömrəli qətnaməsinin yerinə yetirilməsi əvəzinə, Azərbaycanın yeni əraziləri işğal edilmişdir.

1993-CÜ İL İYULUN 23-DƏ
AĞDAM ERMƏNİSTAN TƏRƏFİNDƏN İŞĞAL EDİLDİKDƏN SONRA
**MİNSK QRUPUNUN SƏDRİ MARİO RAFAELLİ**
VASİTƏÇİLİK MİSSİYASININ UĞURSUZLUĞUNU ETİRAF ETMİŞDİR:
**"TƏHLÜKƏSİZLİK ŞURASININ 822 NÖMRƏLİ QƏTNAMƏSİNİN YERİNƏ YETİRİLMƏSİ ƏVƏZİNƏ, AZƏRBAYCANIN YENİ ƏRAZİLƏRİ İŞĞAL EDİLMİŞDİR."**

Atəşkəs razılaşması imzalandıqdan sonra Azərbaycanın danışıqlar prosesində münaqişənin mərhələli şəkildə həll edilməsini dəstəkləməsi əvvəlcə Ermənistanın təcavüzkar silahlı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılmasını, Azərbaycanın ərazi bütövlüyünün və Qarabağda yaşayan ermənilərlə dialoqun başlanmasını özündə ehtiva edirdi.

2000-ci illərdə istər Praqa prosesi çərçivəsində, istərsə Madrid prinsipləri əsasında aparılan danışıqlar da münaqişənin mərhələli şəkildə həllini, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz çıxarılmasını, məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasını, kommunikasiya xətlərinin açılması kimi mühüm elementləri nəzərdə tuturdu.

Azərbaycan suverenliyinə və ərazi bütövlüyünə xələl gətirilməsini qəbul etməyəcəyini və bir milyona yaxın məcburi köçkünün öz ata-baba yurdlarına qayıtmaq hüququnun toxunulmazlığını aydın şəkildə beynəlxalq birliyin diqqətinə çatdırırdı.

Lakin Ermənistan danışıqlar yolu ilə daha çox vaxt qazanmağa, status-kvonu davam etdirməyə və yekunda işğal edilmiş əraziləri ilhaq etməyə çalışırdı. İşğalçı qoşunlarını suveren Azərbaycan ərazilərindən çıxarmaq istəməyən Ermənistan əslində beynəlxalq ictimai rəydə saxta görüntü yaratmaq məqsədilə danışıqlarda iştirak edirdi. Ermənistanda prezident dəyişiklikləri, hər birinin danışıqları yeni səhifədən başlamaq cəhdləri vaxtın uzadılmasına, sonda isə Ermənistan rəhbərliyinin məsuliyyətsiz fəaliyyəti danışıqlar prosesinin dayandırılmasına səbəb oldu.

# Ermənistanın təxribatları və pozuculuq fəaliyyəti

Azərbaycanın Minsk qrupu çərçivəsində iştirak etdiyi bütün görüşlərdə konstruktiv əsaslı razılaşma tapmaq cəhdləri Ermənistanın davamlı təxribatları ilə üzləşirdi. Danışıqların intensiv xarakter aldığı və konkret məsələlərin müzakirə olunduğu vaxtlarda Ermənistan cürbəcür təxribatlara əl atır və prosesin ləngiməsinə çalışırdı. Siyasi liderlərin təxribatçı və təhdidedici bəyanatlarından savayı, bölgədə gərginliyin yaradılması, qarşıdurma zonalarında atəşkəsin intensiv pozulması, Azərbaycanın işğal olunmuş ərazilərində genişmiqyaslı hərbi təlimlər keçirməsi, Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə müdaxilə cəhdləri bu pozuculuq fəaliyyətində adi bir hala çevrilmişdi.

2016-cı ildə danışıqlar aparıldığı zamanda aprelin 2-də Ermənistanın işğalçı qoşunları cəbhə xəttində atəşkəsi pozaraq, cəbhəyə yaxın yaşayış məntəqələrinə, məktəblərə, xəstəxanalara ağır artilleriyadan zərbələr endirdilər. Bu zərbələr nəticəsində 6 dinc sakin həlak oldu, 33 nəfər isə yaralandı.

Törədilmiş genişmiqyaslı təxribata Azərbaycan Silahlı Qüvvələri layiqli cavab verdi, qısa müddət ərzində erməni müdafiə xəttini yarıb onları geri çəkilməyə məcbur etdilər. Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycanın əsgər və zabitləri qəhrəmanlıq, şücaət göstərdilər, 2 min hektardan çox ərazi, o cümlədən strateji əhəmiyyətə malik Lələtəpə yüksəkliyi işğaldan azad edildi.



2018-ci ildən sonra Ermənistanın siyasi və hərbi rəhbərliyi Azərbaycanın işğal edilmiş ərazilərinin ilhaq edilməsi və yeni işğalçılıq müharibəsi ilə bağlı bəyanatlar səsləndirdilər. Ölkənin müdafiə strategiyasından hücum strategiyasına keçdiyi, “yeni ərazilər üçün yeni müharibə” formulu açıqlandı və Azərbaycana qarşı “qabaqlayıcı müharibə” ilə yeni əraziləri işğal etmək niyyətləri bəyan edildi.

2019-cu ilin avqust ayında isə Ermənistanın Baş naziri Nikol Paşinyan Xankəndidə çıxışı zamanı “Qarabağ Ermənistandır və nöqtə” bəyanatı ilə faktiki olaraq sülh prosesindən imtina etdi və münaqişənin danışıqlar yolu ilə nizamlanması imkanlarını məhv etdi. Ermənistan rəhbərliyi sülh və danışıqlar əvəzinə, təxribatlar və hərbi qarşıdurma yolunu seçdi.

Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu il oktyabrın 3-də Soçidə keçirilən “Valday” forumunda “Qarabağ Azərbaycandır və nida işarəsi” bəyanatı ilə Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək yolunda sarsılmaz iradəsini və qətiyyətini bir daha nümayiş etdirdi.

Ermənistan yeni hücum strategiyasına uyğun olaraq 2020-ci il iyulun 12-də Azərbaycanın sərhədyanı rayonu olan Tovuza genişmiqyaslı hücum əməliyyatı təşkil etdi. Hücum cəhdinin qarşısı Azərbaycan Silahlı Qüvvələri tərəfindən qətiyyətlə alındı. Ermənistan Tovuz rayonunu və strateji yüksəklikləri işğal etməklə həm Azərbaycanın yeni ərazilərini ələ keçirməyə, həm də oradan keçən neft-qaz boru kəmərlərini nəzarətə götürüb Azərbaycanın və digər Xəzəryanı dövlətlərin enerji ehtiyatlarının Avropa bazarlarına daşınmasına mane olmağa və Azərbaycanı strateji gəlir mənbəyindən məhrum etməyə çalışırdı.

Bunun ardınca avqust ayında Ermənistan Azərbaycan ərazisinə mülki əhaliyə və hərbçilərə qarşı terror aktları törətmək üçün diversiya qrupu göndərmişdir. Diversiya qrupunun əraziyə daxil olmasının qarşısı alınmış və qrupun başçısı Azərbaycan hərbçiləri tərəfindən saxlanılmışdır. Ermənistan ardıcıl təxribatlar törətməklə, Azərbaycanın gücünü, qətiyyətini və iradəsini nəzərə almamaqla strateji səhvə yol verdi.

# 44 günlük Vətən müharibəsi

Ermənistan 2020-ci il sentyabrın 27-də növbəti hücum cəhdini həyata keçirdi. Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək Azərbaycanın yaşayış məntəqələrini, hərbi mövqeləri atəşə tutmuşdur. Dinc əhali və hərbçilər arasında itkilər və yaralananlar olmuşdur.

Azərbaycan Ordusunun genişmiqyaslı əks-hücuma keçməsi və sonralar “Dəmir yumruq” adı verilmiş hərbi əməliyyatlara başlaması törədilmiş təxribata gözlənilməz, lakin ədalətli cavab olmuşdur. Bu, Azərbaycan xalqının son 30 ildə işğal edilmiş suveren ərazilərini azad etmək istəyindən, beynəlxalq hüquqa əsaslanan özünümüdafiə imkanından istifadə hüququndan qaynaqlanan hərəkət idi. Azərbaycan BMT Xartiyasının 51-ci maddəsinin tələblərinə uyğun olaraq, Ermənistanın hərbi təcavüzünün qarşısını almaq zərurətindən doğan proporsional hərbi gücdən istifadə etdi.

Azərbaycanın hədəfi suveren ərazilərini Ermənistan silahlı qüvvələrinin işğalından azad etmək, məcburi köçkünlərin öz ata-baba yurdlarına qayıtmalarını təmin etmək, regionda sülhü və hüququn aliliyini təmin etmək idi. Bu, Vətən müharibəsi idi.



01.12.2020 Laçın

25.11.2020 Kəlbəcər

20.11.2020 Ağdam

Şuşa 08.11.2020

25.10.2020 Qubadlı

20.10.2020 Zəngilan

17.10.2020 Füzuli

04.10.2020 Cəbrayıl

Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müharibənin ilk günü Azərbaycan ərazilərində ermənilərin işğal illəri ərzində qurduğu çoxsaylı müdafiə xəttini yardılar və hər gün döyüş meydanında qalibiyyətlə irəlilədilər, azad edilmiş kənd və şəhərlərdə Zəfər bayrağını ucaltdılar. Azərbaycanın illərlə işğal altında olan beynəlxalq səviyyədə tanınmış İranla dövlət sərhədində nəzarət bərpa edildi.

Azərbaycan müharibəni yalnız döyüş meydanında, legitim hərbi hədəflər üzrə, beynəlxalq humanitar hüququn qaydalarına uyğun apardı, mülki əhali, mülki infrastruktur hədəfə alınmadı. Ancaq döyüş meydanında ardıcıl məğlubiyyətlərə məruz qalan Ermənistan Azərbaycanın mülki əhalisini və infrastrukturu hədəfə aldı, cəbhə zonasına yaxın şəhər və kəndlərlə yanaşı, cəbhə zonasından uzaqda yerləşən Gəncə, Bərdə, Tərtər, Mingəçevir, Abşeron, Xızı, digər şəhər və rayonlara ballistik raketlərlə zərbələr endirdi. Gəncəyə bir neçə dəfə gecələr edilən raket hücumları öz amansızlığına, daha çox dinc əhaliyə xəsarət vermək məkrlərinə görə xüsusilə fərqlənirdi.

## Bu hücumlar nəticəsində:

**454**
mülki şəxs yaralandı

**93**
mülki şəxs qətlə yetirildi

**12** uşaq

**27** qadın

**54** kişi



Ermənistan daha çox insan tələfatına nail olmaq üçün qadağan olunmuş **"ağ fosfor"**lu və **"kaset"** tipli bombalardan da istifadə etdi.


Gəncə


Gəncə


Gəncə


Gəncə


Tərtər


Tərtər


Mingəçevir
1-6 №-li ENERJİ BLOKLARI










TİCARƏT

Qarabağ xanlığının paytaxtı üçün 1752-ci ildə inşa olunmuş müqəddəs və alınmaz qala hesab edilən Şuşa şəhərinin noyabrın 8-də azad edilməsi müharibənin taleyini həll etdi və Ermənistanın kapitulyasiyası qaçılmaz oldu.

Noyabrın 10-na keçən gecə Azərbaycan, Ermənistan və Rusiya liderlərinin imzaladığı üçtərəfli Bəyanatla hərbi əməliyyatlar dayandırıldı, Azərbaycanın şərtlərini qəbul edən Ermənistan işğalçı qoşunlarının Azərbaycan ərazisindən çıxarılması ilə bağlı öhdəlik götürdü, eyni zamanda, digər ərazilərin boşaldılması ilə bağlı təqvim təqdim etdi. Azərbaycan ərazilərinin işğalına son qoyuldu. Azərbaycan humanistlik göstərərək öz ərazisində Rusiya sülhməramlı kontingentinin yerləşdirilməsinə razılıq verdi və onların nəzarəti altındakı ərazidə yaşayan ermənilərin təhlükəsizliyinə şərait yaratdı.

## 44 GÜN DAVAM EDƏN VƏTƏN MÜHARİBƏSİ MÖHTƏŞƏM ZƏFƏRLƏ BAŞA ÇATDI. TARİXİ ƏDALƏT BƏRPA EDİLDİ.


İLHAM ƏLİYEV


QARABAĞ
AZƏRBAYCANDIR!
8
NOYABR
ZƏFƏR
GÜNÜ



# Sülh müqaviləsinin hazırlıq mərhələsi

Vətən müharibəsi bitdikdən dərhal sonra Azərbaycan sülh müqaviləsi imzalamaq təşəbbüsü ilə çıxış etdi və beynəlxalq hüquqa əsaslanan 5 baza prinsipini irəli sürdü. Bu prinsiplər iki qonşu dövlət arasında uzunmüddətli sülhün bərqərar edilməsini və mehriban qonşuluq münasibətlərinin qurulmasının əsaslarını təşkil edir.

Azərbaycan ermənilərlə birgə yaşayış şərtlərini, o cümlədən Azərbaycan vətəndaşlığı ilə bağlı məsələləri müzakirə etmək üçün təmaslar qurdu, lakin Ermənistanın və onun havadarlarının sülh və barış prosesini pozmaq cəhdləri ilə üzləşdi.

Ermənistanın qeyri-səmimiliyi, Azərbaycanın suveren əraziləri ilə bağlı tələbləri, üçtərəfli Bəyanatın bəzi müddəalarından, o cümlədən 10 mindən çox hərbi qüvvəni Azərbaycan ərazisindən çıxarmaqdan və Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz kommunikasiyanı açmaqdan imtina etməsi, eləcə də humanitar məqsədlər üçün açıq olan Laçın yolundan silah-sursat, xüsusilə yeni cəbhə xətti yaratmaq üçün Ermənistanda istehsal olunan minalar daşınması üçün istifadə edilməsi Azərbaycana qarşı ərazi iddialarının hələ də Ermənistan siyasətinin əsas leytmotivi olduğunu göstərdi.

Belə bir şəraitdə Rusiya sülhməramlılarının məsuliyyəti zonasında Ermənistan ordu hissələrinin mühəndis-istehkam işlərinin aparmasını müşahidə edən Azərbaycan Silahlı Qüvvələri onların qarşısının alınması üzrə zəruri tədbirlər gördü. 2022-ci ilin avqust ayının 3-də keçirilən əməliyyat nəticəsində isə qeyri-qanuni birləşmələrin müxtəlif döyüş mövqeləri dağıdıldı, əhəmiyyətli yüksəkliklər nəzarətə götürüldü.

Eyni zamanda, Ermənistan hələ də delimitasiya və demarkasiya olunmamış Azərbaycanla sərhəddə sistematik şəkildə təxribatlar törədirdi. Ermənistan ordusunun sərhədin müxtəlif yerlərində Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini atəşə tutması, gecə saatlarında Azərbaycan ərazilərinə keçən erməni diversiya qrupları tərəfindən ərazilərin və yolların minalanması 2022-ci ilin 12-14 sentyabr tarixlərində Ermənistan-Azərbaycan sərhədində genişmiqyaslı silahlı toqquşmalara gətirib çıxardı. İki gün davam edən döyüşlər nəticəsində Azərbaycan vacib strateji yüksəkliklərdə əlverişli mövqelərini və öz sərhədinə nəzarət imkanlarını gücləndirdi.



# Lokal antiterror tədbirləri

Ardıcıl təxribatlar və sonda isə Ermənistanın Azərbaycanın ərazilərində hələ də mövcud olan qeyri-qanuni silahlı birləşmələrinin diversiya qruplarının gündəlik istifadə edilən yola gecə vaxtı basdırdığı minaların 2023-cü il sentyabrın 19-da partlaması və yol işləri aparan 9 nəfər azərbaycanlı mülki şəxsin və hadisə yerinə gələn polisin həyatına son qoyması Azərbaycanın lokal antiterror tədbirləri həyata keçirməsinə səbəb oldu.

Yalnız qeyri-qanuni erməni hərbi birləşmələrinin mövqelərini hədəf alan lokal antiterror tədbirləri 23 saat 51 dəqiqə davam etdi. Ermənistanın suveren Azərbaycan ərazisində yaratdığı qondarma rejim sülhməramlı kontingentlə əlaqələndirilmiş şəkildə qeyri-qanuni silahlı birləşmələrin ləğvinə, onların silahı yerə qoyub döyüş mövqelərini tərk etməsinə, Ermənistan silahlı qüvvələrinin bölmələrinin ərazidən çıxarılmasına və silah-sursatın təhvil verilməsinə razılıq verdi.

Azərbaycan humanitar yardımlar göndərməklə bərabər ermənilərin qeydiyyatdan keçməsi, vətəndaşlıqla bağlı müraciət etməsi və reinteqrasiyası üçün dərhal tədbirlər gördü. Eyni zamanda, Qarabağda yaşayan ermənilərin nümayəndələri ilə Yevlax şəhərində görüşlər keçirildi və reinteqrasiya məsələləri müzakirə edildi. Lakin onlar Ermənistandakı şovinist-revanşist qüvvələrin cızdığı plana uyub Ermənistana getməyə üstünlük verdilər. Bu, onların şəxsi qərarları idi. Azərbaycan onların hüquq və təhlükəsizliyinə təminat verdiyini bəyan etdi, onları öz evlərində qalıb birgə yaşamağa davam etməyə dəfələrlə çağırış etdi, o cümlədən müraciətlər üçün onlayn platforma istifadəyə verdi. Qalan ermənilər vətəndaşlıq üçün Azərbaycanın dövlət qurumlarına müraciət edib, əvvəlki kimi Azərbaycanın tərkibində yaşamağa davam edirlər.

Tezliklə qondarma rejimin mövcudluğunun qeyri-qanuniliyi onun özünü buraxması məsələsini gündəmə gətirdi. Ermənilərin reinteqrasiyası Azərbaycan qanunvericiliyinə riayəti özündə ehtiva etdiyi üçün qondarma rejim sentyabrın 28-də özünü buraxdığını elan etdi.

Lokal antiterror tədbirləri ilə Azərbaycan bütün milli ərazisində suverenliyini təmin etdi. Bunun rəmzi olaraq oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xankəndi şəhərində, həmçinin Ağdərədə, Xocalıda, Xocavənddə Azərbaycan Bayrağını qaldırdı. Noyabrın 8-də Zəfər günü Xankəndidə hərbi paradın keçirilməsi isə Azərbaycanın Qarabağa qayıdışının əzəmətini, münaqişənin bitdiyini dünyaya əyani nümayiş etdirdi.



Prezident
**İlham Əliyev:**

**"Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror əməliyyatı zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir. Biz Ordumuzla, Silahlı Qüvvələrimizlə fəxr edirik, onlar bizim qürur mənbəyimizdir."**

*15 oktyabr 2023-cü il, Xankəndi*


ZƏFƏR



# Viran edilmiş yurdun bərpası

Azad olunmuş ərazilərdə müşahidə edilən mənzərə çox acınacaqlı idi. Ermənistan son 30 ildə vaxtilə 750 mindən çox azərbaycanlının yaşadığı şəhər və kəndlərdə bütün evləri, binaları və tarixi memarlıq abidələrini talamış, məhv etmiş, yer üzündən silmişdir. Məqsədyönlü şəkildə həyata keçirilən bu dağıdıcılıq fəaliyyəti əslində azərbaycanlıların bu torpaqlarda mili-mədəni izini və tarixi mövcudluğunun sübutlarını silməyə xidmət edirdi. Bu, əsl urbisid və mədəni genosid aktıdır.

Torpağın sahibləri geri qayıtdı və işğaldan azad olunmuş, lakin Ermənistan tərəfindən viran edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işlərinə, şəhər və kəndlərin yenidən və müasir "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyalarına uyğun salınmasına başladılar. Azərbaycan Hökuməti tərəfindən Böyük Qayıdış Dövlət Proqramı qəbul edildi. Azərbaycan öz vəsaiti, texniki və iqtisadi imkanları ilə bu ərazilərin sürətlə yenidənqurmasını həyata keçirir və Böyük Qayıdış Proqramını uğurla icra edir. Artıq Laçında, Füzulidə və yeni salınmış qəsəbələrdə ilk sakinlər məskunlaşmışdır və proses davam edəcəkdir. 2026-cı ilədək azad olunmuş ərazilərdə salınacaq yaşayış məskənlərinə 34500 ailə, ən azı 140 min sakin köçəcəkdir. Artıq onlardan 4516 nəfər olmaqla 1134 ailə yeni qurulmuş şəhər və kəndlərdə məskunlaşmışdır.

Təəssüf ki, beynəlxalq ictimaiyyət, aidiyyəti beynəlxalq təşkilatlar, aparıcı dövlətlər Azərbaycanın dəfələrlə çağırışlarına baxmayaq, törədilmiş bu vandalizmə - abidələrin, qəbiristanlıqların, bütövlükdə şəhər və kəndlərin dağıdılmasına, qiymət vermirlər. İkinci Dünya müharibəsindən sonra viran qalmış Avropanın bərpa-quruculuğu üçün işlənilmiş Marşal planına bənzər Azərbaycana dəstək planına, işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması üçün hər hansı bir plana baxılmadı. Qərb ölkələri bu 30 il ərzində Ermənistanın işğalına nümayiş etdirdiyi görməzliyi və laqeydliyi indi də bərpa prosesində davam etdirir.

# *2026-cı ilədək*

azad olunmuş ərazilərdə salınacaq yaşayış məskənlərinə **34500 ailə**, ən azı **140 min sakin** köçəcəkdir.










QARABAĞ






ŞUŞA 50



Planlaşdırılmış işlərin icrasında ən başlıca maneə azad olunmuş ərazilərdə Ermənistan tərəfindən sistemsiz şəkildə, bəzən də məkrlə aldadıcı fəndlərlə aparılmış minalanmadır. Bu illər ərzində Ermənistan işğal etdiyi ərazilərin demək olar ki, hər qarışını minalamışdır. Hesablamalara görə bu ərazilərdə 1,5 milyondan çox mina basdırılmışdır. Bu isə Azərbaycanı dünyanın mina ilə ən çox çirklənmiş ölkələri siyahısına daxil edir. Azərbaycanın tələblərinə baxmayaraq, Ermənistan yenə də öz məkrli planlarını davam etdirir, sülh prosesində qeyri-səmimilik göstərir və basdırılmış minaların həqiqi xəritələrini verməkdən imtina edir. İlk olaraq belə xəritələrin mövcudluğu, ümumiyyətlə, danılmışdır, sonra isə beynəlxalq vasitəçilərin təkidi ilə Azərbaycana verilmiş hansısa xəritələrin dəqiqliyi 25%-dən yüksək olmamışdır.

Azərbaycanda əsasən Minatəmizləmə Agentliyi (ANAMA) azad olunmuş ərazilərdə minalardan təmizləmə işini aparmaqdadır. Görüləcək işlərin həcmini nəzərə alaraq bu işlərə Müdafiə Nazirliyinin və Fövqəladə Hallar Nazirliyinin minatəmizləmə qüvvələri də cəlb edilmişdir. Hətta qadınlardan ibarət ilk minatəmizləmə qrupu da yaradılmışdır.

Ermənistanın nümayiş etdirdiyi qeyri-konstruktiv mövqe səbəbindən bu ərazilərin təmizlənməsi uzun vaxt aparacaqdır. **Bu isə Azərbaycana qarşı Ermənistanın terrorçuluq fəaliyyətinin minalar vasitəsilə aparılmasının davam etdiyinin göstəricisidir. 2020-ci ildə müharibə bitdikdən sonrakı dövrdə 341 nəfər mina terrorunun qurbanı olmuş, 65 nəfər həyatını itirmiş, 276 nəfər yaralanmışdır. Həyatını itirmiş şəxslərdən 50-si mülki şəxs, 15-i hərbçi olmuşdur. Yaralılardan isə 164 nəfər hərbçi, 112 nəfər mülki şəxsdir.**

Bunlar bir daha onu göstərir ki, Ermənistanın mina terrorundan ən çox əziyyət çəkən də mülki şəxslər, bu ərazilərdə yerləşən yerli əhalidir.




əHLUKəLIDIR





# Gələcəyə baxış

Ermənistanın kapitulyasiya aktını imzalaması ilə münaqişə başa çatmışdır və regionda sülh, əmin-amanlıq üçün əsl fürsət yaranmışdır. Ermənistan bu fürsətdən yararlanmalı, regionun münaqişə və qarşıdurma meydanından inkişaf və əməkdaşlıq meydanına çevrilməsinə öz töhfəsini verməlidir.

Regionda yaranmış yeni reallıqlar yeni yanaşmalar tələb edir. Azərbaycan sülh danışıqlarının təşəbbüskarı kimi sülh müqaviləsinin imzalanması, dövlət sərhədinin demarkasiyası və delimitasiyasının həyata keçirilməsi və mehriban qonşuluq əlaqələrinin qurulması istiqamətində qətiyyətli mövqe nümayiş etdirir.

Azərbaycan Ermənistanla münasibətlərin nizamlanmasına tam hazırdır və Ermənistan tərəfindən səmimi, konstruktiv mövqe nümayiş etdirilməsini, əməli addımların atılmasını gözləyir. Ermənistan zamanın tələbini düzgün qiymətləndirməsə, regional inkişafdan kənarda qalacaqdır.

Azərbaycanın gələcəyə nikbin baxışları və planları vardır. Regionda nəqliyyat kommunikasiyalarının açılması beynəlxalq nəqliyyat dəhlizləri sistemini yenidən konfiqurasiya edəcək, bölgə ölkələrini beynəlxalq tranzit yükdaşımaların, beynəlxalq nəqliyyat dəhlizlərinin iştirakçısına çevirəcəkdir.

Yaşıl texnologiyalar əsasında yenidən qurulan yaşayış məntəqələri və infrastruktur müasir yaşayış tələblərinə cavab verən şəraitin yaradılması ilə yanaşı, bölgəni yaşıl enerji zonasına çevirir.







Füzulidə və Zəngilanda tikilmiş, Laçında isə tikilməkdə olan beynəlxalq hava limanları, yaradılan infrastuktur, ən əsası isə məftunedici təbiət Qarabağı cəlbedici turizm məkanına çevirəcəkdir.

Bölgədə müxtəlif sahələrdə iqtisadi fəaliyyətin inkişafı və yeni iş yerlərinin yaradılması insan amilinin, onun gələcəyinin qorunması məqsədlərinə uyğun olaraq həyata keçirilir.

Azərbaycan işğal olunmuş ərazilərini azad etməklə regionda sülhün və gələcək inkişafın münbit əsaslarını təmin etmişdir.

**Həyat davam edir.**

